# Gənclərin vətəndaş kimi formalaşmasında çağırışaqədərki hazırlıq fənninin rolu

**Vasif RAMAZANOV,**
*Sumqayıt şəhəri fars-ingilis dilləri təmayüllü tam orta internat məktəbinin GÇH rəhbəri, ehtiyatda olan baş leytenant*

Çağırışaqədərki hazırlıq fənninin tədrisi zamanı gənclər dövlətimizin müdafiə qüdrətini, Konstitusiya və qanunlardan irəli gələn vəzifələri, Silahlı Qüvvələrin təyinatını, əhəmiyyətini və hərbi nizamnamələrin tələblərini, hərbi xidmətin vətəndaşlar üçün şərəfli vəzifə olduğunu öyrənirlər. Əsgərlərin həyat tərzi ilə tanış olur, gənc əsgər səviyyəsində bilik və bacarıqlara yiyələnirlər. Müasir kütləvi qırğın silahlarından mühafizə qaydalarını öyrənməklə yanaşı, mülki müdafiənin və tibbi biliklərin əsaslarını mənimsəyirlər. Gənclər bu bilik və bacarıqları mənimsəməklə ətraf mühitə qısa zamanda uyğunlaşır və fövqəladə vəziyyətlərdə öz sağlamlıqlarını və həyatlarını mühafizə etmək imkanlarına malik olurlar.

Bəs, yuxarıda saydığımız vəzifələrə necə nail olmalıyıq? Bunun üçün ilk növbədə əsas məsuliyyət məktəb rəhbərliyinin və gənclərin çağırışaqədərki hazırlıq rəhbərlərinin üzərinə düşür. Çünki bu iş yüksək məsuliyyət, yaradıcı yanaşma, yüksək peşəkar hazırlıq, öz üzərində çalışma, daim bilik və bacarıqlarını təkmilləşdirməyi tələb edir. Bu günün məktəb və çağırışaqədərki hazırlıq rəhbərləri innovativ olmalı, müasir təlim texnologiyalarından, İKT-dən, internet resurslarından geniş istifadə etmək bacarıqlarına yiyələnməlidir. İlk növbədə isə GÇH rəhbərləri peşəkar olmalıdırlar. Müasir zamanla ayaqlaşa bilmək üçün peşəkarlıq vacib şərtdir. GÇH rəhbərlərinin peşəkarlığını bir neçə cəhətdən müəyyənləşdirmək olar:

- Mənəvi cəhətdən xalqa, onun keçmişinə və adət-ənənələrinə bağlılıq;
- Psixoloji hazırlıq;
- Təcrübə və bilik;
- Müasir texnologiyalardan və İKT-dən istifadə bacarığı;
- Humanist və demokratik düşüncə tərzi.

Mənəvi cəhətdən xalqa, onun keçmişinə və adət-ənənələrinə bağlı olan rəhbər gənc nəsli vətənpərvər, xalqına, tarixinə və adət-ənənələrinə məhəbbət bəsləyən və hər an vətənin müdafiəsinə hazır olan, ümumbəşəri dəyərlərə hörmətlə yanaşan bir şəxsiyyət yetişdirə bilər.

Psixoloji cəhətdən hazır olan rəhbər gəncləri sülh şəraitində mürəkkəb və çətin hərbi xidmətə, müharibə zamanı isə döyüş tapşırıqlarını uğurla yerinə yetirən, sosial-psixoloji və intellektual keyfiyyətlərə malik, ilk növbədə isə cəsur, düşmənlə mübarizədə qətiyyətli, qələbə naminə iradəli və təmkinli, mürəkkəb şəraitdə düzgün qərar qəbul edəcək əsgər hazırlayacaqdır. Bununla yanaşı, müharibənin yaratdığı fəlakətlərin mahiyyətini, millətindən, dinindən, ölkəsinin siyasi statusundan asılı olmayaraq, insanların mehriban və sülh şəraitində yaşamasının üstünlüyünü gənclərə anladacaqdır.

Təcrübəli və bilikli rəhbər gəncləri Silahlı Qüvvələrin tarixi, dövlətin müdafiə hüquqlarının əsasları, vətəndaşın vəzifə və hüquqları, hərbi xidmətin spesifikası, texnika və silahların əsas nümunələri və müasir döyüşün ibtidai anlayışları ilə tanış edir.

Həmçinin şagirdlərin fiziki, sıra hazırlıqlarını, topoqrafiya, insanın sülh və müharibə şəraitində həyat və fəaliyyətinin mühafizəsi üsullarını, fövqəladə hadisələr zamanı zərərçəkənlərə ilk tibbi yardımın göstərilməsi bacarıqlarını öyrədir.

Müasir texnologiyalar və İKT-dən istifadə bacarığı olan rəhbər gənclərlə çox rahat dialoq qura bilir. Əsrimiz internet əsri olduğu üçün, bu, günümüzdə vacib istiqamətlərdən biridir, desək yanılmarıq. Bu gün internet vasitəsilə gəncləri inkişaf etmiş ölkələrin orduları ilə, onların malik olduğu silahlar ilə tanış etmək çox asanlaşıb. Dərslərin qurulmasında artıq elektron lövhələrdən, proyektorlardan və kompüterlərdən geniş istifadə olunur. Müasir gənclər bu yeniliklərlə artıq tanışdırlar və bu da sevindirici haldır. GÇH rəhbərinin işi onlara düzgün istiqamət verməkdir.

Humanist və demokratik düşüncə tərzi olan GÇH rəhbəri - günümüzün tələblərinə uyğun, azadfikirli və müasir dünyaya inteqrasiya edə biləcək şəxsiyyət tərbiyə edə bilər. Bunun üçün GÇH rəhbəri şagirdləri ilə daha çox dost kimi rəftar etməlidir. Çünki təhsildə şagird - müəllim anlayışı artıq öz mənasını bir qədər dəyişmişdır. Müasir dövrdə təhsilverənlər və təhsilalanlar vardır. Təhsilverənlər təhsilalanlara artıq obyekt kimi yox, subyekt kimi yanaşmalıdır. Onlar arasındakı münasibətlər qarşılıqlı hörmət və inam əsasında formalaşır. Əslində, bu keyfiyyətlər bizim xalq üçün xarakterikdir. Əsrlər boyu böyüklərimiz kiçikləri sevmiş, hər zaman onlara qayğı ilə yanaşmış, kiçiklərimiz isə böyüklərimizə hörmət etmiş və bunu özlərinə borc bilmişlər. Xalqımızın qədim yazılı abidəsi olan "Dədə Qorqud" dastanı ibrətamiz məsələləri ilə yuxarıda dediklərimizə əyani sübutdur.

Müasir dövrdə gənclərin çağırışaqədərki hazırlığı fənninin tədrisində müşahidə etdiyimiz və qarşılaşdığımız çətinlikləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- Fənnin tədrisi X-XI siniflərdə aparıldığı üçün bir qədər diqqətdən kənar qalır. Səbəbini şagirdlərin ali məktəblərə hazırlaşması ilə izah etmək olar. Fikrimizcə, bu fənnin VIII-IX siniflərdə keçilməsi daha məqsədəuyğun olar;
- Gənc nəsil ilə yaşlı nəsil arasında müəyyən təzadlar mövcuddur. Bu təzadların səbəblərini ilk növbədə, gənclərin yeniliklərə açıq, yaşlıların bir çoxunun isə qapalı olması; yaşlıların hər zaman özlərini haqlı sayması, bir sözlə, yaşlı nəsil ilə gənc nəsil arasında mənəvi bağlılığın zəifləməsi kimi izah etmək olar. Bu bağlılığı möhkəmləndirmək üçün davamlı olaraq yaşlı nəslin nümayəndələri, əmək və müharibə veteranları ilə görüşlər keçirmək müsbət nəticələr verər;
- İnformasiya bolluğu. Yaşlı nəslin bəzi nümayəndələri informasiya bolluğu nəticəsində gənc nəslə heç də həmişə nümunə ola bilmir. Yaşlı nəslin nümayəndələri öz nüfuzunu qorumaq üçün daim öyrənməli və məlumat bazasını genişləndirməlidir;
- Nəhayət, köhnə sistemin tərk edilməsilə birlikdə, onun müsbət cəhətlərinin unudulmasıdır ki, bu da bir boşluq yaradır. Bu boşluğu doldurmaq üçün keçmiş müsbət təcrübələrdən də yararlanmaq lazımdır.

GÇH rəhbərləri, ümumiyyətlə, təhsil verənlər, bu problemlərlə tanış olmalı və onları aradan qaldırmaq üçün hər zaman öz üzərlərində çalışmalıdırlar. Gənclərimizi əsl vətəndaş, əqidəli insan, vətənini sevən və bu yolda hər cür məhrumiyyətlərə hazır olan vətəndaş kimi yetişdirmək istəyiriksə, ilk növbədə biz özümüz bu keyfiyyətlərə malik olmalıyıq. Bu keyfiyyətlər bizim həyat tərzimiz olmalıdır, çünki ən gözəl təlim, təlim alana örnək olmaqdır.

Unutmayaq ki, yetişdirdiyimiz gənc nəsil bir neçə ildən sonra bizləri əvəz edəcək. Bu baxımdan gələcəyimizin işıqlı olması bizim bugünkü fəaliyyətimizdən asılıdır.